

# CƏNUBİ QAFQAZ BORU KƏMƏRİ – GENİŞLƏNDİRMƏ LAYİHƏSİ

# TORPAQ SAHƏLƏRİNİN ƏLDƏ EDİLMƏSİ VƏ KOMPENSASİYALARIN ÖDƏNİLMƏSİNƏ DAİR TƏLİMAT KİTABÇASI – Azərbaycan

## 2015-Cİ İLİN YANVAR AYINDA YENİLƏNİB

Bu sənəd **Torpaq sahələrinin əldə edilməsi və kompensasiyaların ödənilməsinə dair təlimat kitabçasıdır** və **Cənubi Qafqaz Boru Kəmərininin Genişləndirilməsi** (CQBKG) layihəsi ilə bağlı Azərbaycandakı fəaliyyətlər üçün hazırlanmışdır. Sənəd CQBK şirkəti tərəfindən torpaq sahələrinin əldə edilməsi üzrə müstəqil mütəxəssislərin məsləhətlərinə əsasən tərtib edilmişdir. Sənəd təsirə məruz qalan torpaq sahibləri və torpaq istifadəçilərini, eləcə də yerli orqanlar və geniş ictimaiyyəti layihə ilə bağlı torpaq sahələrinin əldə edilməsi və kompensasiya prosesinə aid praktik məlumatla təmin etmək üçün nəzərdə tutulmuşdur. Buraya layihənin qısa təsviri, onun torpaq tələblərinin təqdimatı, CQBK şirkətinin torpaq sahələrinin əldə edilməsi və kompensasiya prosesinə tətbiq etməyi nəzərdə tutduğu əsas prinsiplər, kompensasiya dərəcələri və prosesin müxtəlif mərhələləri və şikayətlərə baxılması prosedurunun təsviri daxildir.

Bu sənəd eyni zamanda www.bp.com/caspian saytında yerləşdirilmişdir.

Bu sənəd ingilis və Azərbaycan dillərində təqdim edilir. Sənədin Azərbaycan dilinə tərcüməsinin ingilis dilində olan əslinin niyyət və mənasını dəqiq və doğru əks etdirdiyini təsdiq etmək üçün səy göstərilmişdir. Müxtəlif dillərdə olan həmin versiyaların hər hansı müddəalarının və ya hər hansı sonrakı tərcümələrin təfsiri zamanı hər hansı ziddiyyət və ya fikir ayrılığı olduğu halda ingilis dilindəki versiya həlledici üstünlüyə malik olacaq.

Bu sənədlə bağlı suallar aşağıdakı ünvan və ya telefon nömrəsinə ünvanlandırıla bilər:

CQBK şirkəti
BP Xəzər Mərkəzi
Port Baku
Neftçilər prospekti 153
AZ1010 Bakı
Azərbaycan

Tel: (+994) 12 599 3000 (Kommutator)

# 1 CQBK LAYİHƏSİ

CQBK şirkəti Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) genişləndirilməsini planlaşdırır. "CQBKG" adlanan bu layihə Azərbaycanda Bakı yaxınlığındakı Səngəçal terminalından başlayan və Axaltsixe (Gürcüstan) yaxınlığında Gürcüstan – Türkiyə sərhəddində başa çatan mövcud CQBK-nin imkanlarını artırmaq üçün nəzərdə tutulmuşdur. CQBK 2006-cı ildən istismardadır və Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən Şahdəniz yatağından hasil edilən qazı nəql edir. Genişləndirmə layihəsi həm Azərbaycan, həm də Gürcüstanın müxtəlif yerlərində tikiləcək olan boru kəmərinin yeni seksiyaları və əlaqədar obyektləri əhatə edir. CQBKG tamamlandıqdan sonra bütün CQBK sisteminin qaz nəqletmə imkanı artacaqdır.

Azərbaycandakı iş mövcud CQBK-yə birləşmədən başlayaraq Gürcüstan sərhəddində bitəcək olan "boru kəməri dövrələrini", yəni, aşağıdakı sxemdə qırmızı rənglə göstərilən boru kəmərinin yeni seksiyalarını əhatə edir.

CQBKG Layihəsi ümumi uzunluğu Azərbaycanda təqribən 424km, Gürcüstanda isə 62 km təşkil edən iri diametrli (48") boru kəməri dövrəsindən ibarətdir. Həmin dövrə əsasən qaz axınının artırılması üçün nəzərdə tutulmuşdur. Boru kəmərinin yeni seksiyası texniki səbəblərdən cüzi yayınmalarla ümumilikdə mövcud CQBK-yə paralel çəkiləcəkdir. Boru kəməri bir metr yerin altı ilə çəkiləcəkdir və tikildikdən sonra torpaq qatı bərpa olunacaqdır.

Bundan əlavə burada yeni daimi yerüstü qurğular də olacaqdır. Ən böyük obyektlər Gürcüstan ərazisində yerləşir (iki kompressor stansiyası və təzyiqin azaldılması və ölçmə stansiyası). Azərbaycanda yalnız daha kiçik obyektlər, o cümlədən birləşdirmə və ərsinləmə stansiyası və CQBK-nın 78, 152, 227, 298 və 386-cı kilometrlərində boru kəməri marşrutu boyunca beş bağlayıcı siyirtmə olacaqdır.

Eyni zamanda müvəqqəti obyektlər üçün yalnız tikinti dövründə (təqribən üç il) torpaq lazım olacaqdır. Tikintinin planlaşdırılması məqsədilə boru kəməri marşrutu aşağıdakı qaydada 5 bölməyə bölünmüşdür:

- Qoltuq - Kürdəmir (CQBK KG23-151).
- Kürdəmir - Türyançay (CQBK KG151-202).
- Türyançay - Borsunlu (CQBK KG202-292).
- Borsunlu – Zəyəmçay (CQBK KG292-363).
- Zəyəmçay - Gürcüstan sərhədi (CQBK KG363-442).

Bu beş bölmədən hər biri tikinti düşərgələri, boru saxlama sahələri, texniki xidmət sahələri, dəmir yolu kəsişmələri və yol, dəmir yolu, çay və digər kəsişmələr üçün lazım olan bir sıra iş sahələrini ehtiva edəcəkdir.

Boru kəməri və əlaqədar obyektlər beynəlxalq standartlara əsasən tikiləcəkdir. Tikinti dövrü ərzində və əməliyyatlar zamanı müntəzəm nəzarət proqramı olacaqdır.

Tikinti işləri 2014-cü ildə, əməliyyatlar isə güman ki, 2018-ci ildə başlanacaqdır. Torpaq sahələrinin əldə edilməsi üzrə fəaliyyətin çox hissəsinin 2014-cü və 2015-ci ildə həyata keçirilməsi planlaşdırılır.



# 2 LAYİHƏ ÜZRƏ TORPAQ TƏLƏBLƏRİ

Layihənin (1) boru kəmərinin tikintisi və istismarı, (2) yerüstü qurğuların tikintisi və istismarı və (3) yalnız tikinti müddətində istifadə ediləcək müvəqqəti obyektlər, eləcə də tikinti düşərgələri, boru saxlama yerləri, giriş-çıxış yolları, müəyyən kəsişmələr və s. üçün torpaq sahəsinə ehtiyacı olacaqdır. Torpaq tələbləri aşağıdakı cədvəldə qeyd edilmişdir. Texniki layihə dəqiqləşdirildikcə bu rəqəmlər dəyişə bilər.

| CQBKG üzrə Torpaq Tələbləri | Təqribi Torpaq Sahəsi |
|---|---|
| **Boru kəməri:** Tikinti dəhlizi (eni təqribən 36 m) | **1,707 hektar** |
| **Daimi obyektlər:** (Birləşdirmə və ərsinləmə stansiyası və beş bağlayıcı siyirtmə) | **2 - 3 hektar** |
| **Müvəqqəti tikinti obyektləri** (düşərgələr, boru anbarları, kəsişmələrdə iş zonaları) | **195 hektar** |

### BORU KƏMƏRİNİN TİKİNTİ DƏHLİZİ VƏ MÜHAFİZƏ ZONALARI

CQBKG boru kəmərinin tikintisi və istismarı üçün tələb olunan torpaq sahəsi aşağıdakıları ehtiva edir:

- Adətən tikinti müddətində lazım olacaq 36 metr enində “Tikinti Dəhlizi”; bir çox hallarda bu Tikinti Dəhlizinin bir hissəsi əvvəlcədən BTC və CQBK boru kəmərlərinin tikintisi və istismarı üçün kompensasiyası ödənilmiş torpaqdan keçir. Bəzi hallarda, misal üçün kəsişmələrdə, Tikinti Dəhlizi texniki səbəblərə görə daha enli olmalıdır.
- Zona 1 (ümumi eni 8 metr olmaqla, boru kəmərinin mərkəzi xəttinin hər tərəfində 4 metr enində) və Zona 2-dən (ümumi eni 22 metr olmaqla, boru kəmərinin Zona 1-in hər tərəfində 11 metr enində) ibarət ümumi eni 30 metr təşkil edən “Mühafizə Zonaları”.

Mühafizə Zonalarına şamil edilən qadağalar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 166-19 nömrəli qərarına əsasən təyin edilmişdir.

Zona 1-də bina tikintisi, ağac əkilməsi, dərindən şumlama, partlayıcı maddələrin istifadəsi qadağandır.

Zona 2-də binaların tikintisi qadağandır, lakin adi kənd təsərrüfatı fəaliyyətlərinə icazə verilir.

Azərbaycan Respublikasının müvafiq qanunları əsasında digər qadağalar da təyin edir. Məsələn:

- CQBK-nin mərkəzi oxundan hər tərəfə 385 metr məsafədə xəstəxanaların, məktəblərin, üç mərtəbədən yuxarı olan yaşayış evlərinin, sənaye və kənd təsərrüfatı təyinatlı binaların və hər hansı ictimai-kütləvi obyektlərin tikintisi qadağan edilir
- Eni 500 metr olan Məsləhətləşmə zonası daxilində, bütün mühüm planlaşdırmanı nəzərdə tutan fəaliyyətlər, yeni infrastruktur qurğularının tikintisi və yenidən qurulması, partlayış işlərinin aparılması, payavurma, iri miqyaslı torpaqqazma işləri, su hövzələri axarlarının dəyişdirilməsi (kanallar, çaylar, göllər) barədə CQBK şirkətinə əvvəlcədən məlumat verilməlidir.

*Xülasə – Tikinti Dəhlizi və Qadağa Zonaları nədir?*

- *Boru kəmərinin Tikinti Dəhlizi (əsasən 36m enində) hazırkı torpaq mülkiyyətçilərindən icarəyə götürüləcək və tikinti müddəti ərzində istifadə olunacaqdır. Tikinti müddətinin sonunda torpaq mümkün qədər ilkin vəziyyətinə uyğun bərpa edilib mülkiyyətçilərinə qaytarılacaqdır.*
- *Mühafizə Zonaları boru kəmərinin istismar müddəti üçün yaradılıb.*
- *Zona 1-də tikinti işləri və əkin qadağandır.*
- *Zona 2-də bina tikintisi aparmaq qadağandır, lakin normal kənd təsərrüfatı fəaliyyətinin davam etdirilməsi mümkündür.*

### DAİMİ YERÜSTÜ QURĞULAR

Yerüstü Qurğular üçün tələb olunan torpaq uzun müddətli icarəyə götürüləcəkdir. Ondan istifadə hüququ tikinti bitdikdən sonra keçmiş sahiblərinə və ya istifadəçilərə geri qaytarılmayacaqdır.

### MÜVƏQQƏTİ OBYEKTLƏR

Müvəqqəti obyektlər üçün tələb olunan torpaq tikinti müddətinə cari sahiblərindən icarəyə götürüləcək və tikinti işləri bitdikdən və bərpa prosesi həyata keçirildikdən sonra yenidən torpaq sahiblərinə geri qaytarılacaqdır.

### TƏCRİD OLUNAN TORPAQ

Bəzi hallarda Tikinti Dəhlizinin hər iki tərəfində Layihə üçün lazım olmayan və adi qaydada kompensasiya olunmayan torpaq sahələri qala bilər. Əgər az sayda qalan torpaq sahələri faydasız qalarsa, bu torpaq sahələri üçün şərtlərə əsasən "təcrid olunan torpaq" kimi kompensasiya tələb edilə bilər. Torpaq sahəsinin "təcrid olunan torpaq" kimi təsnifləşdirilə bilməsi o torpaq sahibi və/və ya torpaq istifadəçisinin sorğusuna əsasən fərdi qaydada nəzərdən keçiriləcəkdir. Bu cür baxış zamanı aşağıdakı meyarlara diqqət yetiriləcəkdir:

- Torpaq sahəsinin təcrid olunan hissəsinin sahəsi, ölçüləri və forması
- Giriş qadağaları və bunun yalnız tikinti müddətində istifadə edilməsi və ya daimi olması (çox nadir hallar istisna olmaqla, baş verməsi gözlənilmir)
- Bu torpaq sahəsində kultivasiya üçün istifadə edilən mexaniki avadanlığın ölçüsü və xüsusiyyəti və bu avadanlığın verilən ölçü və formaya malik təcrid olunan torpaq sahəsində istifadəsinin mümkün olub-olmaması
- Tikinti dövrü ərzində suvarma və ya drenaj işlərinə qadağalar.

*<u>Xülasə – Təcrid olunan torpaq nədir?</u>*

- *Təcrid olunan torpaq adi kompensasiya ərazisindən kənarda yerləşən, lakin torpaq sahəsinin bir hissəsinin zəbt və ya əldə edilməsi ilə səmərəsiz vəziyyətə gələn torpaqdır*
- *Təcrid olunan torpaq kompensasiya edilə bilər*
- *Təsirə məruz qalmamış torpaqların təcrid olunan torpaq kimi təsnifləşdirə bildiyini hesab edən torpaq sahibləri məsələni fərdi şəkildə araşdıracaq olan CQBK şirkətinin Torpaq sahələrinin əldə edilməsi Qrupuna müraciət etməlidir.*

# 3 KOMPENSASİYA PRİNSİPLƏRİ

CQBK şirkətinin CQBKG ilə bağlı qərara aldığı əsas kompensasiya prinsipləri aşağıdakılardır:

- Torpaq sahələrinin əldə edilməsi Azərbaycan qanunlarına və Azərbaycan Hökuməti və CQBK şirkəti arasında bağlanmış Tranzit Əraziyə malik Ölkənin Hökumətilə Sazişə əsasən həyata keçirilməli və beynəlxalq standartlara əsasən idarə edilməlidir
- Torpaq və məhsul üzrə kompensasiyanın hesablanması zamanı bazar qiymətindən istifadə edilməlidir.
- Bu sənəddə təqdim edilmiş kompensasiya dərəcələri 2014-cü ilə müvafiqdir, lakin torpaq sahələrinin əldə edilməsi 2015-ci ildə və 2016-ci ildə də həyata keçirilməlidir. Hər ilin sonunda qiymətlər dəqiqləşdiriləcək və bazar qiyməti artmış olduğu hallarda kompensasiya dərəcələri də artırılacaq. Bazar qiymətləri dəyişməmiş və ya azalmış olduğu hallarda kompensasiya dərəcələri dəyişməyəcək. Dəqiqləşdirilib yenilənən qiymətlər Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (ARDSK) tərəfindən dərc edilən rəsmi məlumatlara əsaslanır.
- Layihənin məqsədləri üçün müvəqqəti əsasda istifadə edilən hər hansı torpaq sahəsi əvvəlki vəziyyətinə qaytarılacaqdır; xüsusilə kənd təsərrüfatı üçün nəzərdə tutulmuş torpaqlar əvvəlki kənd təsərrüfatı fəaliyyətlərinin yenidən həyata keçirilməsinin mümkün olacağı vəziyyətə gətirilməklə bərpa ediləcəkdir. Əlaqədar prosesin təfərrüatları bu sənədin 9-cu səhifəsində təqdim edilir.
- Təsirə məruz qalan torpaq sahibləri və torpaq istifadəçiləri şikayətlərin qəbul olunması və baxılması üzrə şəffaf mexanizmdən istifadə etmək hüququna malik olmalıdır.
- Torpaq sahibləri və torpaq istifadəçiləri fərqli şəxslər olduqda, torpaq sahibləri torpaq və qadağalara görə kompensasiya almaq, torpaq istifadəçiləri isə təsirə məruz qalmış məhsul və dolanışıq vasitəsi və yaşayış standartlarının bərpası üçün kompensasiya almaq hüququna malikdir.

- Torpaq istifadəçilərinin hüquqları qeydiyyata alınmamışdırsa, müvafiq olaraq, torpaqla bağlı tələblərini qeydiyyata almaq üçün onlara yardım edilməlidir
- Torpaq sahələrinin əldə edilməsi prosesinin təsirinə məruz qalmış həssas təbəqəyə aid insanlar müəyyən edilməli və lazım olan xüsusi yardımla təmin edilməlidir.

## DAİMİ ƏLDƏ EDİLƏN TORPAQ

Daimi Əldə edilən Torpaq birləşdirmə, ərsinləmə və beş bağlayıcı siyirtmə stansiyaları üçün tələb olunan torpaq sahələrini ehtiva edir. Bununla bağlı kompensasiya prinsipləri aşağıdakılardır:

- Daimi Əldə edilən Torpaq cari sahiblərindən icarəyə götürülməlidir.
- Daimi əldə edilən torpaq üçün kompensasiya münasib qaydada aşağıdakı üç elementi ehtiva etməlidir:
    - Layihə üzrə Torpağın Əldə edilmə Dərəcəsinə uyğun olaraq (bu sənədə Əlavə 1-də müvafiq dərəcələrə baxın) torpaq üçün kompensasiya;
    - Layihə üzrə Məhsul Dərəcəsinə (bu sənədə Əlavə 1-də müvafiq dərəcələrə baxın) uyğun hər hansı hələ yığılmamış illik və ya uzunömürlü məhsullar üçün kompensasiya;
    - Hər hansı struktur və ya plan üçün əvəzetmə dəyərində kompensasiya (konkret haldan asılı olaraq, sertifikatlaşdırılmış qiymətləndirici tərəfindən aparılan dəyərləndirməyə əsasən).
- Daimi əldə edilən torpaq Dövlətə və ya bələdiyyə orqanlarına məxsus olduğu zaman torpaq istifadəçiləri (əgər varsa) Layihə üzrə Məhsul Dərəcələrinə əsasən məhsul üçün kompensasiya almalıdır.

*Xülasə – Daimi əsasda əldə edilən torpaq üçün kompensasiya*

- *Layihə üzrə torpaq sahəsinin əldə edilməsinə görə kompensasiya dərəcəsilə torpaq üçün kompensasiya*
- *Layihə üzrə Məhsul Dərəcələrinə əsasən hər hansı yığılmamış məhsul üçün kompensasiya*
- *Fərdi qaydada dəyərləndirilən hər hansı plan və ya strukturlar üçün kompensasiya*

## BORU KƏMƏRİNİN TİKİNTİ DƏHLİZİ

36 metr enində Tikinti Dəhlizində aşağıdakı qaydada kompensasiya ödəniləcək:

1. Torpaq icarəsi: "Layihə üzrə Torpağın İcarə Haqqı" tikinti müddətində torpağın müvəqqəti olaraq istifadəsinə görə, o cümlədən həmin torpağın istifadə olunması səbəbindən kənd təsərrüfatı fəaliyyəti ilə bağlı gəlir itkilərini kompensasiya edir. Layihə üzrə Torpağın İcarə Haqqı ərazidən toplanması gözlənilən səciyyəvi məhsul qarışımından alınan illik gəlirin tikintinin aparılacağı illərin sayına (adətən üç ilə) vurulmasına əsasən hesablanır.
2. Dolanışıq vasitəsi və yaşayış standartlarının bərpası: Bu əlavə müavinət bərpa prosesindən sonra kənd təsərrüfatı məhsuldarlığı ilə bağlı hər hansı itkinin kompensasiyasını nəzərdə tutur. "Layihə üzrə dolanışıq vasitəsi və yaşayış standartlarının bərpası Dərəcəsi" ərazidə gözlənilən səciyyəvi təsərrüfat dövriyyəsindən alınan illik gəlirin 3 ilə vurulmuş məbləğinin 30%-i kimi, yəni kənd təsərrüfatından alınan illik gəlirin 90%-i kimi hesablanır.
3. Məhsullar: Torpaq sahəsində Layihə ilə bağlı işlərə başlanmazdan öncə toplana bilməyən yığılmamış illik və ya uzunömürlü məhsullar üçün "Layihə üzrə Məhsul Dərəcəsi" ilə kompensasiya ödəniləcək.

Torpaq sahibi və torpaq istifadəçisi fərqli şəxslər olduğu halda, kompensasiya aşağıdakı qaydada bölüşdürülür:

- Torpaq sahibinə: Torpağın icarə haqqı
- Torpaq istifadəçisinə: Dolanışıq vasitəsi və yaşayış standartlarının

bərpası və məhsullara görə kompensasiya.

## BORU KƏMƏRİNİN MÜHAFİZƏ ZONALARI

Mühafizə zonaları aşağıdakılardan ibarətdir:

- Zona 1: Mərkəzdə əməliyyatlar zamanı texniki təmir və ya fövqəladə müdaxilə məqsədilə CQBK şirkəti tərəfindən istifadə edilə bilən səkkiz metr enində zolaq.
- Zona 2: Zona 1-in hər iki tərəfində yerləşən və müəyyn qadağaların tətbiq edilməsi mümkün olan on bir metr enində iki zolaq.

Mühafizə zonasındakı torpağa görə kompensasiya aşağıdakı elementlərdən ibarətdir:

1. <u>Zona 1-dəki məhdudiyyətlərə görə kompensasiya:</u> 8 metrlik zolağa tətbiq edilən (boru kəmərinin hər iki tərəfində 4 m – bu sənədin sonundakı dərəcələrə baxın) Layihə çərçivəsində torpaq sahələrinin əldə edilməsi üçün kompensasiya dərəcələrinin 60%-i.
2. <u>Zona 2-dəki məhdudiyyətlərə görə kompensasiya</u>: 8 metrlik mərkəzi zolağın hər iki tərəfindəki iki 11 metrlik zolaqlara tətbiq edilən Layihə çərçivəsində torpaq sahələrinin əldə edilməsi üçün kompensasiya dərəcələrinin 20%-i.

Bəzi hallarda BTC/CQBK dəhlizləri CQBKG-nin tikinti dəhlizi ilə üst-üstə düşür və həmin sahələrə dair 2003-2005-ci illərdə kompensasiya artıq ödənilmişdir. Artıq BTC/CQBK dəhlizlərindəki uzunmüddətli məhdudiyyətlərə görə kompensasiya ödənilmiş torpaq sahələri üçün məhdudiyyətlərə görə kompensasiya ödənilməyəcək. Əgər BTC/CQBK dəhlizləri daxilindəki torpaq sahəsi daha sərt məhdudiyyətlər kateqoriyasına aid edilərsə və əlavə məhdudiyyətlərin təsirinə məruz qalarsa, məhdudiyyətlərə görə əlavə kompensasiya ödəniləcək. Tətbiq olunguğu hallarda, BTC/CQBK dəhlizlərində yerləşən və CQBKG-nin tikinti dəhlizinə düşən torpaq sahələrinə görə kompensasiya hazırkı sənəddə torpağın icarəsinə, dolanışıq vasitəsi və yaşayış standartlarının bərpasına və məhsullara görə nəzərdə tutulmuş müvafiq dərəcələrə uyğun olaraq ödəniləcəkdir.

## TƏCRİD OLUNAN TORPAQ

Tikinti dəhlizinin yanında yerləşən təsirə məruz qalmamış torpaq fərdi baxış zamanı və torpaq sahibinin CQBK şirkətinə müraciət etməsi əsasında “təcrid olunan torpaq” kimi təsnifləşdirildikdə kompensasiya edilə bilər.

# 4 KOMPENSASİYA DƏRƏCƏLƏRİ

## KOMPENSASİYA DƏRƏCƏLƏRİNİN HESABLANMASININ ƏSASLARI

Təsirə məruz qalmış bütün aktivlər bərpa dəyərinə əsasən kompensasiya edilir. Bütün dərəcələr bu sənədə Əlavə 1-də qeyd edilmişdir.

## LAYİHƏ ÇƏRÇİVƏSİNDƏ TORPAQ SAHƏLƏRİNİN ƏLDƏ EDİLMƏSİ ÜZRƏ KOMPENSASİYA DƏRƏCƏLƏRİ

Layihə çərçivəsində torpaq sahələrinin əldə edilməsi üçün kompensasiya dərəcələri CQBKG boru kəmərinin keçdiyi hər bir rayon üçün torpaq sahələri ilə bağlı ən son sövdələşmə qiyməti əsasında hesablanır.

## LAYİHƏ ÇƏRÇİVƏSİNDƏ TORPAQ ÜÇÜN İCARƏ HAQQI DƏRƏCƏLƏRİ

Layihə çərçivəsində torpaq üçün icarə haqqı dərəcələri dolanışıq vasitəsi və yaşayış standartlarının bərpasına görə kompensasiya dərəcələri CQBKG boru kəmərinin keçdiyi üç aqro-iqlim zonası üzrə hesablanır:

- Bölgə I: Abşeron, Ağsu, Qaradağ, Hacıqabul rayonları;
- Bölgə II: Ağdaş, Goranboy, Kürdəmir, Ucar, Yevlax rayonları;
- Bölgə III: Ağstafa, Samux, Şəmkir, Tovuz.

## LAYİHƏ ÇƏRÇİVƏSİNDƏ MƏHSUL ÜZRƏ KOMPENSASİYA DƏRƏCƏLƏRİ

Məhsullar üzrə layihə çərçivəsində kompensasiya dərəcələri boru kəməri boyunca fərqli məhsuldarlıq və bazar şəraitini əks etdirmək üçün təyin edilmiş və yuxarıda qeyd edilən üç aqro-iqlim zonası üzrə hesablanır.

Meyvə ağacları üçün kompensasiya dərəcələri Layihənin əhatə etdiyi hər bir rayon üzrə hesablanır. Cavan, yəni (ilkin inventarlaşdırma zamanı aparılmış qeydə əsasən) bir ildən az yaşı olan ağaclar üçün xüsusi dərəcələr tətbiq edilir. Normal aqronomik qaydalara uyğun olmayaraq əkilməyən ağaclarla bağlı kompensasiya ödənilməyəcəkdir. Misal üçün, bu əkini səmərəsizləşdirən çox sıx əkilmiş ağaclara tətbiq edilə bilər. Azərbaycanın aqronomik qaydalarına əsasən əkilən ağacların normativ sıxlığı bu sənədə Əlavə 2-də verilmişdir.

## DİGƏR AKTİVLƏR ÜÇÜN KOMPENSASİYA

Təsirə məruz qala bilən digər aktivlər, məsələn, binalar, kanallar, su boruları, hidrotexniki qurğular və s. fərdi qaydada dəyərləndiriləcəkdir.

*Xülasə – Kompensasiya Dərəcələri:*

- *Kompensasiya dərəcələri əvəzetmə dəyərinə əsaslanır*
- *Torpaq üçün kompensasiya dərəcələri hər rayon üzrə cari bazar dəyərinə əsasən hesablanır.*
- *Məhsullar üçün kompensasiya dərəcələri boru kəməri marşrutunun keçdiyi üç aqro-iqlim zonasında müşahidə olunan bazar qiymətlərinə əsaslanır. Münasib hallarda, cavan (yetkin olmayan) ağaclar üçün xüsusi dərəcələr tətbiq edilir.*

# 5 KOMPENSASİYA PROSESİ

## MÜƏYYƏNLƏŞDİRMƏ VƏ SAHƏDƏ İNVENTARLAŞMA

Torpaq sahələrinin əldə edilməsi Qrupları ilk öncə təsirə məruz qalmış torpaq sahələrini Dövlət Reyestrində və DTXK-da müəyyən edir və mülkiyyət hüququ barədə mövcud məlumatı yoxlayır.

Torpaq sahələrinin əldə edilməsi Qruplarının nümayəndələri boru kəməri dəhlizində yerləşib təsirə məruz qalmış bütün torpaq sahiblərini, istifadəçilərini və torpaq sahələrini ziyarət edir. Qrup torpaq sahibləri/istifadəçiləri ilə görüşərək onlara prosesi fərdi şəkildə izah edir və torpaq sahibləri və/və ya torpaq istifadəçilərinin iştirakı ilə potensial təsirə məruz qalan torpaqlara səfər edir və inkişaf və məhsuldarlıq daxil olmaqla, yerində torpağın ətraflı inventarlaşdırılması və yoxlanmasını həyata keçirir. İnventarlaşdırma aktı imzalanma üçün mülkiyyətçiyə təqdim olunur və bu forma kompensasiyanın hesablanması üçün əsas təşkil edir.

## KOMPENSASİYANIN HESABLANMASI

Razılaşdırılmış inventarlaşdırmaya əsaslanan kompensasiya bu sənəddə göstərilmiş dərəcələrə əsasən torpağın əldə edilməsi, torpağın icarəsi, dolanışıq vasitəsi və yaşayış standartlarının bərpası, məhsullar və məhdudiyyətlər üçün hesablanır. Torpaqla bağlı yaxşılaşdırmalar, eləcə də istənilən strukturlar fərdi qaydada dəyərləndirilir.

## RAZILAŞMA

Torpaq sahibi və ya istifadəçiyə ödənilməli olan kompensasiya hesablandıqdan sonra həmin mülkiyyətçilərlə razılaşma onlara təqdim olunur. Həmin razılaşma sahənin inventarlaşdırmasına və dərəcələrə əsaslanaraq hesablamaları aydın ifadə edir və təsirə məruz qalmış torpaq sahəsinin xəritəsini əhatə edir.

Bütün səylər qarşılıqlı razılaşmanın əldə edilməsinə yönəldilir, lakin danışıqların bu mərhələdə həll edilmədiyi hallarda, notarius tərəfindən razılaşmanın əldə olunmasının mümkün olmadığını təsdiqləyən müvafiq sənəd hazırlanır. Razılıq əldə edilməyən hallar bu sənədin 6 saylı bəndinə əsasən idarə edilir.

Ödəniş razılaşma imzalandıqdan sonra və Layihə çərçivəsində tikinti işləri üçün torpaq sahəsinə daxil olmazdan əvvəl edilir.

## TORPAQDAN ÇIXMA HAQQINDA PROTOKOL VƏ TORPAĞIN GERİ QAYTARILMASI

Tikinti və bərpa işləri tamamlandıqdan sonra, Torpaq sahələrinin əldə edilməsi Qrupu və tikinti podratçıları torpaq sahibləri/istifadəçiləri ilə onların torpaqlarından çıxış yoxlanışını həyata keçirir. Bu yoxlama 1-ci və 2-ci Mühafizə Zonalarında müəyyən təhlükəsizlik qadağaları və məhdudiyyətlərinə riayət etməklə torpağın əvvəlki kənd təsərrüfatı fəaliyyətinə yararlı vəziyyətdə olduğunu təsdiq etmək üçün keçirilir. Torpaq sahibinin razılığı olarsa, təsirə məruz qalmış torpaq sahəsi kənd təsərrüfatı fəaliyyətləri üçün ona geri qaytarılır.

Çıxış yoxlaması zamanı torpaq sahibi/istifadəçi torpaq sahəsində icazə verilən və qadağan edilən fəaliyyətlər və layihənin uzun müddətli monitorinqi üzrə qrup nümayəndəsi ilə əlaqə təfərrüatları barədə məlumatlandırılır. Torpaqdan çıxış haqqında protokol bu məlumatı ehtiva edir və tikinti podratçısı, təsirə məruz qalmış torpaq sahibləri və ya istifadəçiləri, həmçinin CQBK şirkəti və Hökumət nümayəndəsi tərəfindən imzalanır. Bu protokol bütün tərəflərin torpağın bərpa edilmə keyfiyyətindən məmnun olduğunu təsdiq edir.

*Xülasə – Torpaq sahələrinin əldə edilməsi prosesi:*

*1. Müəyyənlənləşdirmə və ərazidə yoxlama*
⇩
*2. Kompensasiyanın hesablanması*
⇩
*3. Razılaşmanın imzalanması*
⇩
*4. Kompensasiyanın ödənilməsi*
⇙ ⇘

*Boru kəməri* ⇩ *5. Tikinti* ⇩ *6. Bərpa* ⇩ *7. Torpaqdan çıxış və geri qaytarma*

*Daimi qurğular* ⇩ *5. Tikinti*

# 6 ŞİKAYƏTLƏR

## RAZILIĞIN ƏLDƏ OLUNMAMASI

Əgər kompensasiya ilə bağlı heç bir razılıq əldə olunmazsa, iki mümkün çıxış yolu vardır:

- Texniki cəhətdən mümkün olduqda, kompensasiya razılığı əldə edilə bilməyən torpaq sahəsini əldə etməmək üçün boru kəmərinin marşrutu dəyişdirilir; bu zaman yeni marşrutun təsirinə məruz qalan torpağın sahibi/istifadəçisi ilə yuxarıda təsvir edilən proses təkrarlanır.
- Və ya Torpaq sahələrinin əldə edilməsi Qrupu torpaq sahəsinin Azərbaycan qanunvericiliyinə uyğun olaraq Dövlət ehtiyacları üçün Dövlət tərəfindən alınması tətbiq edilə bilər.

## ŞİKAYƏTLƏRİN BAXILMASI PROSEDURU

Layihə heyəti şikayətləri məhkəmə sisteminə müraciət etmədən, qarşılıqlı razılaşma ilə həll etməyə çalışacaq. CQBK şirkəti tərəfindən aşağıdakı prinsiplərə əsasən şikayətlərin baxılması proseduru hazırlanmışdır:

- İstənilən şikayət qəbul edildiyi gündən sonra 7 təqvim günü ərzində qeydiyyata alınmalı, qəbul edildiyi barədə təsdiq verilməli və şikayət qəbul olunandan 30 təqvim günü ərzində CQBK şirkəti tərəfindən cavablanmalı və məsələ həll olunanadək gedişatı izlənməlidir
- Şikayətlərin baxılması proseduru CQBK şirkəti daxilində ilk yoxlamanı ehtiva edir; CQBK şirkəti tərəfindən şikayət qəbul edildikdən 30 gün ərzində şikayətlərə baxılır, sənədləşmə yoxlanır, lazım gəldikdə yerində monitorinq keçirilir və şikayətçiyə həll qərarını təklif edir
- Təklif olunan həll yolu şikayətçi tərəfindən qəbul edilmədikdə, şikayətçi şikayətini Rayon üzrə müvafiq Şikayətlərin baxılması Komissiyasına və/və ya lazım gələrsə, xarici vasitəçi orqana göndərə bilər, sonuncu isə öz növbəsində şikayətə baxır, hər iki tərəfin fikrini dinləyir və həll yolu təklif edir; həll yolu CQBK şirkəti tərəfindən qəbul edildikdə, o, yazılı şəkildə şikayətçiyə təklif olunur
- İkinci dəfə təklif olunan həll yolu şikayətçi tərəfindən qəbul edilmədikdə, hər iki tərəf məhkəmə sisteminə müraciət edə bilər.

Bu üsulla şikayətlərin baxılması proseduru şikayətçiləri Azərbaycan qanunlarına əsaslanan hüquqlarından, eləcə də istənilən mərhələdə Məhkəməyə müraciət etmək hüququndan istifadə etməkdən məhrum etmir.

Aşağıda qeyd olunan üsullar şikayət irəli sürülməsi üçün təqdim edilmişdir:

- CQBK şirkətinin Torpaq məsələləri üzrə məsul işçiləri və ya İcmalar ilə əlaqələr üzrə məsul işçiləri, şifahi və ya yazılı.
- CQBK şirkətinin Bakı ofisi, yazılı:
  BP Azərbaycan, Xəzər Mərkəzi
  Port Baku
  Neftçilər prospekti 153
  AZ1010 Bakı, Azərbaycan.

*Xülasə – Şikayətlər:*

- *CQBKG üçün torpaq sahələrinin əldə edilməsi və kompensasiya proqramı ilə bağlı hər hansı şikayətlərin Məhkəməyə müraciət etmədən, sülh yolu ilə həlli üçün CQBK şirkəti tərəfindən şikayətlərin sülh yolu ilə baxılması proseduru hazırlanmışdır;*
- *Hər hansı şikayət qəbul edildiyi gündən 7 təqvim günü və CQBK şirkəti tərəfindən ilk həll təklifinin alınmasından 30 təqvim günü ərzində təsdiq edilməlididir;*
- *Şikayətçi təklif olunan həll yolu ilə razı olmadığı halda, Rayon üzrə Şikayətlərin Baxılması Komissiyası və ya lazım gələrsə, məsələni dinlədikdən sonra təklif irəli sürən xarici vasitəçi orqana müraciət edə bilər;*
- *Əgər şikayətçi yenə də kifayətlənməzsə, o Məhkəməyə müraciət edə bilər (və bu istənilən zaman mümkün ola bilər).*

# ƏLAVƏ 1 – LAYİHƏ ÜZRƏ KOMPENSASİYA DƏRƏCƏLƏRİ

## TORPAQ

**Layihə çərçivəsində torpaq sahələrinin əldə edilməsi üçün kompensasiya dərəcələri**
**Torpağın Daimi əsasda Əldə edilməsi (Daimi Obyektlər)**
**Əvəzetmə dəyəri üstəgəl Azərbaycan Qanunlarına əsasən 20% Bonus**
**(bonus artıq aşağıda qeyd edilən dərəcələrə daxil edilib)**

| Rayon | Bir hektar ərazi üçün Layihə üzrə Kompensasiya Dərəcəsi |
|---|---|
| | AZN (Azərbaycan manatı) |
| Ağstafa | 30,020 |
| Samux | 30,020 |
| Şəmkir | 30,020 |
| Tovuz | 30,020 |
| Goranboy | 27,115 |
| Yevlax | 24,210 |
| Ağdaş | 22,273 |
| Kürdəmir | 22,273 |
| Ucar | 22,273 |
| Ağsu | 19,368 |
| Hacıqabul | 14,526 |
| Qaradağ | 9,684 |
| Abşeron | 9,684 |

**Layihə çərçivəsində torpaq sahələrinin icarəsinə görə kompensasiya dərəcəsi**
**Bir il üçün: kənd təsərrüfatından orta illik gəlirin 100%-i**

| Bölgə 1 (Abşeron, Ağsu, Qaradağ, Hacıqabul) AZN/hektar | Bölgə 2 (Ağdaş, Goranboy, Kürdəmir, Ucar, Yevlax) AZN/hektar | Bölgə 3 (Ağstafa, Samux, Şəmkir, Tovuz) AZN/hektar |
|---|---|---|
| 1 530 | 3 500 | 4 880 |

**Layihə çərçivəsində dolanışıq vasitəsi bərpası üçün kompensasiya dərəcəsi**

**Orta illik kənd təsərrüfatı gəlirinin üç ilə vurulmuş məbləğinin 30%-i (bir dəfə ödənilir)**

| Bölgə 1 (Abşeron, Ağsu, Qaradağ, Hacıqabul) AZN/hektar | Bölgə 2 (Ağdaş, Goranboy, Kürdəmir, Ucar, Yevlax) AZN/hektar | Bölgə 3 (Ağstafa, Samux, Şəmkir, Tovuz) AZN/hektar |
|---|---|---|
| 1 377 | 3 150 | 4 392 |

**Layihə üzrə Torpaq Qadağalarının Kompensasiya Tarifləri**
**Boru Kəməri Dəhlizində (8 m zolaq) Uzun müddətli Məhdudiyyətlər üçün**

**Mühafizə zonası 1-də Layihə üzrə torpaq sahəsinin əldə edilməsinə görə kompensasiya tarifinin 60%-i**
**və Mühafizə zonası 2-də Layihə üzrə torpaq sahəsinin əldə edilməsinə görə kompensasiya tarifinin 20%-i**

| Rayon | Layihə çərçivəsində məhdudiyyətə görə kompensasiya dərəcəsi – Mühafizə Zonası 1 (8m zolaq) | Layihə çərçivəsində məhdudiyyətə görə kompensasiya dərəcəsi - Mühafizə Zonası 2 (8 m zolağın hər iki tərəfində 11m enində zolaq) |
|---|---|---|
| | AZN / ha | AZN / ha |
| Ağstafa | 18,012 | 6,004 |
| Samux | 18,012 | 6,004 |
| Şəmkir | 18,012 | 6,004 |
| Tovuz | 18,012 | 6,004 |
| Goranboy | 16,269 | 5,423 |
| Yevlax | 14,526 | 4,842 |
| Ağdaş | 13,364 | 4,455 |
| Kürdəmir | 13,364 | 4,455 |
| Ucar | 13,364 | 4,455 |
| Ağsu | 11,621 | 3,874 |
| Hacıqabul | 8,716 | 2,905 |
| Qaradağ | 5,810 | 1,937 |
| Abşeron | 5,810 | 1,937 |

# MƏHSULLAR

**Layihə üzrə İllik Məhsul üçün Kompensasiya Tarifləri**

| Məhsulun İngilis dilində adı | Məhsulun Azərbaycan dilində adı | Bir vegetasiya dövrü üçün Layihə üzrə məhsul dərəcəsi (Azərbaycan manatı ilə) | | |
|---|---|---|---|---|
| | | Bölgə 1 | Bölgə 2 | Bölgə 3 |
| Bean | Lobya | 22 000 | 22 000 | 22 000 |
| Beetroot | Çuğundur | 25 000 | 25 000 | 25 000 |
| Broom | Süpürgə | 6 714 | 6 714 | 11 572 |
| Cabbage | Kələm | 6 632 | 6 632 | 16 044 |
| Cotton | Pambıq | 871 | 871 | 871 |
| Garlic | Sarımsaq | 18 779 | 18 779 | 46 200 |
| Irrigated Grazing Land | Biçənək | 643 | 643 | 760 |
| Lucerne* | Yonca | 4 746 | 8 407 | 9 174 |
| Maize | Qarğıdalı | 2 490 | 2 490 | 3 083 |
| Melons | Bostan məhsulları | 3 776 | 3 897 | 6 671 |
| Onion | Soğan | 7 070 | 7 070 | 16 330 |
| Pasture | Örüş | 203 | 203 | 203 |
| Pepper | Bibər | 24 000 | 24 000 | 24 000 |
| Potato | Kartof | 4 446 | 4 446 | 23 194 |
| Rice | Düyü | 2 503 | 2 503 | 2 503 |
| Sunflower | Günəbaxan | 2 906 | 2 906 | 4 701 |
| Tobacco | Tütün | 3 033 | 3 033 | 3 033 |
| Tomato | Pomidor | 5 314 | 7 034 | 5 314 |
| Vegetable | Tərəvəz | 9 520 | 13 216 | 19 117 |
| Wheat | Taxıl | 469 | 785 | 1 304 |

Bölgə 1 Abşeron , Ağsu, Qaradağ və Hacıqabul rayonlarından ibarətdir.
Bölgə 2 Ağdaş, Goranboy, Kürdəmir, Ucar və Yevlax rayonlarından ibarətdir.
Bölgə 3 Ağstafa, Samux, Şəmkir və Tovuz rayonlarından ibarətdir.
*Yonca üçün kompensasiya dərəcəsi üç il üçün hesablanıb.

**Layihə üzrə Çoxillik Məhsullar üçün Kompensasiya Tarifləri**
**Yetişkən Məhsuldar Meyvə Ağacları – bir ağaca görə Azərbaycan Manatı ilə**

| Ağacın adı | Bölgə 1 (Abşeron, Ağsu, Qaradağ Hacıqabul) | | | Bölgə 2 (Ağdaş, Goranboy, Kürdəmir, Ucar, Yevlax) | | | Bölgə 3 (Ağstafa, Samux, Şəmkir, Tovuz) | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Yetişkən | Bəhrə verməyən | Ting | Yetişkən | Bəhrə verməyən | Ting | Yetişkən | Bəhrə verməyən | Ting |
| Alça | 410 | 82 | 10 | 410 | 82 | 10 | 410 | 82 | 10 |
| Alma | 112 | 22 | 10 | 152 | 30 | 10 | 152 | 30 | 10 |
| Ərik | 512 | 102 | 10 | 392 | 78 | 10 | 392 | 78 | 10 |
| Gilas | 412 | 82 | 10 | 412 | 82 | 10 | 662 | 132 | 10 |
| Xurma | 180 | 36 | 10 | 380 | 76 | 10 | 580 | 116 | 10 |
| Əncir | 579 | 116 | 10 | 459 | 92 | 10 | 579 | 116 | 10 |
| Üzüm | 114 | 23 | 10 | 114 | 23 | 10 | 163 | 33 | 10 |
| Əzgil | 35 | 10 | 10 | 35 | 10 | 10 | 85 | 10 | 10 |
| Fındıq | 3 670 | 734 | 10 | 2 416 | 483 | 10 | 3 670 | 734 | 10 |
| Şaftalı | 262 | 52 | 10 | 262 | 52 | 10 | 362 | 72 | 10 |
| Armud | 362 | 72 | 10 | 362 | 72 | 10 | 362 | 72 | 10 |
| Xırnik | 210 | 42 | 10 | 260 | 52 | 10 | 460 | 92 | 10 |
| Gavalı | 460 | 92 | 10 | 410 | 82 | 10 | 560 | 112 | 10 |
| Nar | 909 | 182 | 10 | 909 | 182 | 10 | 909 | 182 | 10 |
| Heyva | 660 | 132 | 10 | 910 | 182 | 10 | 1 160 | 232 | 10 |
| Albalı | 210 | 42 | 10 | 285 | 57 | 10 | 360 | 72 | 10 |
| Qoz | 2 416 | 483 | 10 | 3 043 | 609 | 10 | 2 416 | 483 | 10 |
| Digər ağaclar | Yetişkən | Bəhrə verməyən | Ting | Yetişkən | Bəhrə verməyən | Ting | Yetişkən | Bəhrə verməyən | Ting |
| Tut | 200 | 40 | 10 | 200 | 40 | 10 | 200 | 40 | 10 |
| Palıd, Qovaq, Akasiya və digər tikintiyə yararlı və dekorativ ağaclar | 40 | 20 | 10 | 40 | 20 | 10 | 40 | 20 | 10 |

*Bu dərəcələr sıra və ağaclar arasında kifayət qədər ara qoyulması ilə adi aqronomik təcrübəyə əsasən əkilmiş yetişkən və bəhrə verən ağaclara tətbiq edilir. Müvafiq şəkildə əkliməyən ağac və sahələr üçün kompensasiya ödənilməyəcəkdir. Məsələn, sıxlığın Azərbaycan qaydaları ilə məsləhət görülən sıxlıqdan çox olduğu (bax: Əlavə 2) və ya ağacların adi əkin mövsümündə deyil, yaxın zamanlarda əkilmiş olduğu hallar.*

*Yuxarıdakı cədvəldə göstərildiyi kimi:*

- *Bir il və ya daha az yaşı olan ağaclar (tinglər) (ilkin inventarlaşdırma zamanı aparılmış qeydə əsasən), növündən asılı olmayaraq, hər biri üçün 10 (on) Azərbaycan Manatı olmaqla kompensasiya ediləcəkdir.*
- *Bir ildən çox yaşı olan və bəhrə verməyən ağaclar bar verən ağaclarla bağlı kompensasiya dərəcəsinin 20%-i qədər məbləğdə kompensasiya ediləcəkdir.*

# ƏLAVƏ 2 – AĞACLAR – ƏN GENİŞ YAYILAN NÖVLƏR ÜÇÜN AZƏRBAYCAN QAYDALARINA ƏSASƏN QƏBUL OLUNAN SIXLIQ

| Növlər və Çeşidlər | Sıralar arasındakı məsafə (metr) | Bir sırada əkilən ağaclar arasındakı məsafə (metr) |
|---|---|---|
| Alma – Çox çeşidli | 3.5 - 5.0 | 3.0 - 4.5 |
| Alma – Orta çeşidli | 3.0 - 4.5 | 2.5 - 4.0 |
| Alma – Az çeşidli | 3.0 - 4.5 | 2.0 - 3.5 |
| Alma – Zoğlu | 3.0 - 4.5 | 1.5 - 2.5 |
| Armud – Çox çeşidli | 3.5 - 5.0 | 3.0 - 4.5 |
| Armud – Orta çeşidli | 3.0 - 5.0 | 2.5 - 4.0 |
| Armud – Az çeşidli | 3.0 - 4.5 | 2.0 - 3.0 |
| Şaftalı | 4.0 - 6.0 | 2.5 - 4.0 |
| Xirnik | 5.0 - 8.0 | 4.0 - 5.0 |
| Heyva | 3.5 - 6.0 | 3.0 - 4.0 |
| Gavalı və göyəm | 3.5 - 7.0 | 3.0 - 4.0 |
| Ərik | 4.0 - 8.0 | 4.0 - 5.0 |
| Gilas | 5.0 - 7.0 | 3.0 - 5.0 |
| Şirin gilas | 5.0 - 8.0 | 4.0 - 5.0 |
| Badam | 4.0 - 7.0 | 4.0 - 5.0 |
| Nar | 3.0 - 5.0 | 4.0 - 5.0 |
| Əncir | 4.0 - 6.0 | 3.0 - 4.0 |
| Fındıq | 5.0 - 6.0 | 3.0 - 4.0 |
| Qoz | 8.0 - 10.0 | 8.0 - 10.0 |
| Üzüm | 0.6 - 1.0 | 2.5 - 3.5 |

**İstinadlar:**

Zaur Həsənov, Cəbrayıl Əliyev “Meyvəçilik”. MBM, Bakı. 2011, 520 səhifə.
Zaur Həsənov və başqaları “Bağban nəyi bilməlidir” sorğu kitabı. ADAU, Gəncə, 368 səhifə.
Əhməd Rəcəbli “Azərbaycanın meyvə bitkiləri”. Bakı. 1966, 276 səhifə.

# ƏLAVƏ 3 – SİZİN KOMPENSASİYANIZIN HESABLAMA NÜMUNƏSİ

Goranboy rayonunda yaşayan cənab İbrahimov boru kəməri ilə kəsişən 3,54 hektar (35 400m2) torpaq sahəsinə malikdir. Bu torpaq sahəsi aşağıdakı kimi boru kəmərinin tikintisi və istismarının təsirinə məruz qalır:

- 57m2 sahə 8 m-lik zolaqda yerləşir (Mühafizə Zonası 1) və tikinti (bu halda 3 il) və istismar zamanı təsirə məruz qalacaqdır;
- 83m2 sahə Mühafizə Zonası 2-də yerləşir (8 m-lik zolağın hər iki tərəfində ümumi eni 22 m olan iki zolaq);
- 271m2 sahə 36 m-lik boru kəməri dəhlizində yerləşir; bu sahə istismar zamanı deyil, tikinti zamanı təsirə məruz qalacaqdır; torpaq sahəsinin bu hissəsi əkilmişdir: 197m2 sahədə buğda, 74m2 sahədə isə yonca yetişdirilir;
- Bundan əlavə cənab İbrahimovun boru kəməri tikintisi zamanı dağıdılacaq olan 36 m-lik zolağa düşən sahəsində üç yetişkən və bar verən alma ağacı bitir.

Cənab İbrahimova ödənilməli olan kompensasiyanın təfərrüatları aşağıda göstərilir. Qeyd: bir hektar = 10 000 m2:

1. **Tikinti zamanı torpağın icarə haqqı:**

| | |
|---|---|
| Təsirə məruz qalmış səth: | 271 m2 |
| Müvafiq dərəcə: (3 500 AZN hektar üçün 1 illik 3 il müddətində): | 10 500 AZN/hektar |
| Kompensasiya: 10 500 AZN / 10000 x 271 m2 = | **285 AZN** |
| Dolanışıq vasitəsi və yaşayış standartlarının bərpası: | |
| Təsirə məruz qalmış səth: | 271 m2 |
| Müvafiq dərəcə: | 3 150 AZN/hektar |
| Kompensasiya: 3 150 AZN / 10000 x 271 m2 = | **85 AZN** |
| **CƏM 1 =** | **370 AZN** |

2. **Mühafizə zonası 1:**

| | |
|---|---|
| Mühafizə Zonası 1-də (8 m-lik zolaq) təsirə məruz qalmış səth: | 57 m2 |
| Mühafizə Zonası 1 üçün müvafiq dərəcə: | |
| Goranboy rayonu üçün Layihə üzrə Torpaq Dərəcəsinin 60%-i: | 16,269 AZN/hektar |
| **CƏM 2** = 16,269 AZN / 10000 x 57 m2 = | **93 AZN** |

3. **Mühafizə zonası 2**

| | |
|---|---|
| Mühafizə Zonası 2-də (8 m-lik zolağın hər iki tərəfində 22 m enində iki zolaq) təsirə məruz qalmış səth: | 83 m2 |
| Mühafizə Zonası 2 üçün müvafiq dərəcə: | |
| Goranboy rayonu üçün Layihə üzrə Torpaq Dərəcəsinin 20%-i: | 5,423 AZN/hektar |
| **CƏM 3** = 5,423 AZN / 10000 x 83 m2 = | **45 AZN** |

4. **Məhsullar:**

| | |
|---|---|
| Buğda: təsirə məruz qalmış səth: | 197 m2 |
| Bölgə 2-də buğda üçün müvafiq dərəcə: | 785 AZN / hektar |
| Yonca: təsirə məruz qalmış səth: | 74 m2 |
| Bölgə 2-də yonca üçün müvafiq dərəcə: | 8 407 AZN / hektar |
| Bölgə 2-də yetişkən və məhsuldar alma ağacları üçün müvafiq dərəcə: | 152 AZN / ağac |
| Məhsula görə ümumi kompensasiya: | |
| **CƏM 4** =785 AZN / 10000 x 197 m2 + 8407 AZN / 10000 x 74 m2 + 152 AZN x 3 = | **533 AZN** |

**ÜMUMİ KOMPENSASİYA: 370 + 93 +45 + 533 = 1041 AZN**